1_Layout 1 14.05.2022 8:52 Page 1

*Daxili Qoşunların üzərinə çox böyük vəzifələr düşür və bunlar uğurla yerinə yetirilir.*

**İlham ƏLİYEV**

DİN DAXİLİ QOŞUNLAR

# ƏSGƏR

№ 10 (624)

17 may 2022-ci il

Qəzet 1992-ci il dekabrın 16-dan nəşr olunur.

Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının HƏRBİ VƏTƏNPƏRVƏRLİK qəzeti

# AZƏRBAYCAN BAYRAĞI QARABAĞDA ƏBƏDİ DALĞALANACAQ

**“Azərbaycan” qəzetinin müxbiri Rəşad Cəfərlinin müəllifi olduğu “Azərbaycan bayrağı Qarabağda əbədi dalğalanacaq” başlıqlı məqalənin ictimai aktuallığını nəzərə alaraq ixtisarla oxucularımıza təqdim edirik.**

Erməni vandallığının qurbanı olan Qarabağ və Şərqi Zəngəzur sürətlə bərpa edilir, yenidən qurulur. Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın mayın 10-da Şuşa və Füzuliyə səfərləri bir daha dövlətimizin azad edilmiş ərazilərdəki quruculuq əzminin təcəssümü oldu.



### Qarabağ və Şərqi Zəngəzur yenidən cənnətə çevrilir

Bu səfər zamanı diqqəti çəkən əsas məqamlardan biri ondan ibarət oldu ki, bərpa işləri tədricən daha geniş miqyas alır, ən müxtəlif istiqamətləri əhatə edir. Düzdür, quruculuq işlərində prioritet infrastrukturun yaradılmasıdır. Lakin yolların çəkilməsi, kommunal infrastrukturun bərpası ilə yanaşı, Qarabağ və Şərqi Zəngəzurda yeni sosial infrastruktur da yaradılır, məktəblər, xəstəxanalar inşa olunur. Bütün bunlar doğma yurdlarına dönəcək vətəndaşların layiqli yaşayışının təmin edilməsi üçündür.

Prezident İlham Əliyevin Füzuli şəhərində inşa olunacaq peşə liseyinin və Füzuli Rayon Mərkəzi Xəstəxanasının təməlini qoyması bərpa prosesinin getdikcə daha əhatəli miqyas almasından xəbər verir. Xatırladaq ki, İlham Əliyevin əvvəlki səfərləri zamanı Füzuli-Ağdam avtomobil yolunun, rayonun Dövlətyarlı kəndində “ağıllı kənd”in, Rəqəmsal Stansiya İdarəetmə Mərkəzinin, Füzuli şəhərində salınacaq çoxmənzilli yaşayış məhəlləsinin təməlləri qoyulub, Füzuli Beynəlxalq Hava Limanı, “Füzuli” yarımstansiyası, Zəfər yolu istifadəyə verilib.

Prezidentin 2021-ci il 7 may tarixli sərəncamı ilə Azərbaycanın mədəniyyət paytaxtı elan olunan, qorunmasının və inkişafının əsasları qanunla müəyyən edilən Şuşanın bərpası da sürətlidir. Şuşa ilə bağlı cəmiyyətin xüsusi razılığı ilə qarşılanan məqam həm də ondan ibarətdir ki, şəhərin tarixi və mədəni irsinin bərpası xüsusilə diqqət mərkəzindədir. Bu da Şuşanın Azərbaycan mədəniyyətinin, musiqimizin beşiyi olmasından, Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın xalqımızın milli irsinə həssas münasibətlərindən, ehtiramlarından irəli gəlir. Şuşa həm də Azərbaycanın mədəniyyət paytaxtı kimi bərpa olunur. Qısa müddətdə bu istiqamətdə mühüm layihələr icra olunub. Məsələn, artıq Vaqifin məqbərəsi əvvəlki görkəmi saxlanılmaqla bərpa edilib. Ötən ilin martında Heydər Əliyev Fondu tərəfindən başlanan bərpa işləri bir neçə aya yekunlaşıb. Vaqifin Şuşadakı evinin yaxınlığındakı büstü də yenidən qurulub. Bərpa edilən abidələrdən biri də görkəmli Azərbaycan bəstəkarı Üzeyir bəy Hacıbəylinin heykəlidir. Şuşanın mənəvi irsi olan İsa bulağından və Natəvan bulağından artıq su gəlir. Şuşanın məşhur ünvanlarından olan Xalq artisti Bülbülün ev-muzeyi də bir neçə ay ərzində yenidən qurulub.

Şuşanın erməni vandallığının qurbanı olmuş məscidləri də Heydər Əliyev Fondu tərəfindən bərpa edilir. O cümlədən, Mehmandarovların malikanə kompleksində fond tərəfindən aparılan bərpa işləri davam edir.

Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın bu günlərdə Şuşaya səfərləri bir daha göstərdi ki, şəhər mədəni və tarixi irsi rəhbər götürülməklə bərpa olunur. Bu səfər zamanı məlum oldu ki, Şuşada yenidən qurulacaq binalardan biri məşhur tarzən, bəstəkar və Azərbaycan tarını təkmilləşdirən sənətkar Sadıqcanın vaxtilə yaşadığı evdir.

Şuşa Realnı Məktəbi isə yalnız bu şəhərin deyil, xalqımızın tarixi, dünyəvi, intellektual irsinin yadigarıdır. Bu məktəb həm tədrisi, təhsil ənənələri, həm də yetişdirdiyi görkəmli şəxsiyyətlərlə bütün Cənubi Qafqazda seçilən təhsil ocaqlarından biri olub. Təmir-bərpa işlərinin bu məktəbi də əhatə etməsi tariximizə, irsimizə ehtiramın ən gözəl nümunələrindən biridir.

Şuşadakı Şirin su hamamı da bərpa olunur. Ölkə əhəmiyyətli daşınmaz tarix və mədəniyyət abidələrinin siyahısında olan hamam Heydər Əliyev Fondu tərəfindən tarixi görkəmi qorunub saxlanılmaqla bərpa ediləcək.

### Atəşkəsdən Zəfərə

Mayın 10-da - Ümummilli Lider Heydər Əliyevin doğum günündə Şuşadan Azərbaycan xalqına müraciət edən Prezident İlham Əliyev nitqini bu sözlərlə bitirdi: “Biz - bu torpaqların sahibləri artıq qayıtmışıq və bu torpaq, bu səma bunu görür. Görür ki, hər gün inkişafla bağlı daha bir addım atılır. Hər gün daş üstə bir daş qoyulur. Biz azad edilmiş bütün torpaqları bərpa edəcəyik, bərpa edirik.

Bu gün mayın 10-da mən mütləq burada olmalı idim. Ulu Öndərin xatirəsinə öz ehtiramımı və Azərbaycan xalqının ehtiramını buradan ifadə etməli, bir daha deməli idim ki, biz bu torpaqlara, doğma torpaqlarımıza əbədi qayıtmışıq və burada əbədi yaşayacağıq”.

Bəli, azad edilmiş bütün torpaqlar bərpa ediləcək və biz Qarabağda, Şərqi Zəngəzurda əbədi yaşayacağıq. Çünki buralar bizim ata-baba torpaqlarımızdır, tarixi Azərbaycan əraziləridir. Birinci Qarabağ müharibəsində atəşkəsin elan olunmasının 28-ci ildönümündə biz bütün bunları daha qürurla dünyaya bəyan edirik. Həmin vaxt atəşkəs torpaqlarımızın işğal altında olduğu bir şəraitdə elan olunmuşdu. Bu gün isə Azərbaycan qalibdir, 44 günlük müharibədən sonra şərtləri diktə edən tərəfdir.

Xatırladaq ki, atəşkəsin əldə edilməsi barədə imzalanmış “Bişkek protokolu” 1994-cü ilin 12 mayında qüvvəyə minmiş və cəbhə xəttində aktiv hərbi əməliyyatlar həmin gündən dayandırılmışdı. Sənədə əsasən, tərəflər tezliklə beynəlxalq vasitəçilik sayəsində “sülh sazişi” imzalamalı idilər. Lakin Ermənistanın qeyri-konstruktiv mövqeyi buna imkan vermədi.

Əslində, atəşkəsə qədər baş verənlər göstərmişdi ki, artıq Azərbaycana güclü və qətiyyətli lider rəhbərlik edir. O lider ki, Azərbaycanın müstəqilliyini, dövlətçiliyini qoruyub saxlamış, Ermənistanın işğal planlarını gücləndirdiyi bir vaxtda yeni ordu formalaşdırmışdı. Bu ordu Füzuli və Murov istiqamətlərində işğalçı qüvvələrin mövqelərinə əhəmiyyətli zərbələr endirmiş, işğal olunmuş ərazilərimizin bir hissəsini azad etmişdi.

“Bişkek protokolu”na əsasən, atəşkəs rejimi real sülh addımları ilə müşayiət olunmalı, yaxın müddət ərzində işğal olunmuş ərazilər boşaldılmalı, köçkünlərin geri qaytarılmasını nəzərdə tutan sülh sazişi imzalanmalı idi. Lakin danışıqlar əvvəlcə aylar, sonra illərlə əvəzləndi.

Buna baxmayaraq, atəşkəsin əldə edilməsi Azərbaycana toparlanmaq, güclənmək üçün şərait yaratdı. Ulu Öndər Heydər Əliyev atəşkəs dövründə Azərbaycanı inkişaf yoluna çıxardı, beynəlxalq birlikdəki mövqelərini gücləndirdi, danışıqlar prosesində respublikamızın haqlı mövqeyini qətiyyətlə qorudu.

Heydər Əliyev yolunu layiqincə davam etdirən Prezident İlham Əliyev Azərbaycanın sürətli inkişafını, Cənubi Qafqazın lider dövlətinə çevrilməsini təmin etdi. Bu siyasət Ermənistanı regionda təcrid etdi, diplomatik sferada küncə sıxışdırdı. Ermənilərin işğal siyasətləri ilə öyündükləri vaxtda İlham Əliyev ordumuzu qüdrətləndirdi, onu ən müasir döyüş qabiliyyətinə malik gücə çevirdi. Azərbaycan torpaqlarında ikinci erməni dövlətinin qurulmasına heç vaxt imkan verilməyəcəyini bəyan edən Prezident İlham Əliyev həm də onu qeyd edirdi ki, sülh danışıqları nəticəsiz qalacağı təqdirdə Azərbaycan güc yolu ilə torpaqlarını işğaldan azad edəcək.

2020-ci il sentyabrın 27-də Ermənistanın cəbhə xəttindəki təxribatları həm də sülh danışıqlarının nəticəsiz qalmasının göstəricisi idi. Beləliklə, yaranmış şəraiti dəyərləndirən Azərbaycan dövləti 44 gün davam edən müharibədə torpaqlarını işğaldan azad etdi.

Sülhə gəlməyən, söz anlamayan Ermənistanı Prezident İlham Əliyev güc yolu ilə cəzalandıraraq münaqişənin ədalətli həllini təmin etdi. Artıq “Dağlıq Qarabağ münaqişəsi” deyilən anlayış da aradan qalxıb, atəşkəs də tarixə qovuşub. İndi bütün dünyanın qəbul etdiyi reallıqlar Azərbaycanın Zəfəri, Bakının diktə və şərtləri, Qarabağ və Şərqi Zəngəzurun bərpasıdır.

# DİN NÜMAYƏNDƏLƏRİ FƏXRİ XİYABANDA OLUBLAR







**Mayın 10-da xalqımızın Ümummilli Lideri Heydər Əliyevin anadan olmasından 99 il ötüb. Bu münasibətlə Azərbaycan Respublikasının Daxili işlər naziri, general-polkovnik Vilayət Eyvazovun rəhbərliyi ilə nazirliyin əməkdaşları və Daxili Qoşunların hərbi qulluqçuları Fəxri xiyabana gedərək müstəqil dövlətimizin memarı və qurucusu, görkəmli dövlət xadimi, xalqımızın dahi oğlu və Ümummilli Lideri Heydər Əliyevin məzarını ziyarət edib, abidəsi önünə gül dəstələri qoyaraq xatirəsini ehtiramla anıblar.**

**DİN-in Mətbuat xidməti**

2 - 3_Layout 1 14.05.2022 8:56 Page 1



# Daxili Qoşunlarda xidmətə yeni qəbul edilmiş çağırışçıların andiçmə mərasimi keçirilib

Mayın 7-də Daxili Qoşunların Bakı şəhərində yerləşən "N" saylı hərbi hissəsində xidmətə yeni qəbul edilmiş çağırışçıların hərbi andiçmə mərasimi keçirilib.

Mərasimdə Daxili qoşunlar komandanının müavini - şəxsi heyət üzrə idarənin rəisi general-mayor İnqilab Muradov iştirak edib.



Tədbir Ümummilli Lider Heydər Əliyevin və torpaqlarımızın azadlığı uğrunda canlarından keçmiş şəhidlərimizin əziz xatirəsinin yad edilməsi ilə başlayıb. Nümunəvi göstərici hərbi orkestrin müşayiəti ilə Dövlət Himni ifa edilib.



Əsgərlər hərbi and içərək, Azərbaycan Respublikasının mənafeyini, onun suverenliyini, ərazi bütövlüyünü və müstəqilliyini şərəflə qoruyacaqlarına, bundan ötrü canlarını belə əsirgəməyəcəklərinə söz veriblər.

Tədbirdə çıxış edən hərbi hissə komandiri polkovnik Telman Həsənov əsgərlərə hərbi andın mənasını, öz xalqına, Azərbaycan Respublikasına və Azərbaycan hökumətinə sədaqətlə and içən hərbi qulluqçuların üzərinə düşən şərəfli və məsul vəzifələri, eləcə də Konstitusiyamızın müvafiq maddələrinin tələblərini xatırladıb.

Sonra Daxili işlər nazirinin müavini - daxili qoşunların komandanının hərbi andiçmə münasibətilə əsgərlərə ünvanladığı təbriki çatdırılıb. Təbrikdə hərbi andı qəbul edən hərbi qulluqçuların qoşunların bütün şəxsi heyəti kimi, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı cənab İlham Əliyev tərəfindən qarşıya qoyulan hər bir tapşırıq üçün şəxsi məsuliyyət daşıdıqları, bundan əlavə, Daxili Qoşunların möhkəmlənməsi və qüdrətlənməsi üçün göstərilən diqqət və qayğının sıralarımızda xidmət edən hər bir gənci öz vəzifələrini mətinliklə yerinə yetirməyə ruhlandırdığı da vurğulanıb. Qeyd olunub ki, hərbi and içərək respublikamızın müstəqilliyini, suverenliyini və ərazi bütövlüyünü göz bəbəyi kimi qorumağa söz verməklə, hər bir hərbi qulluqçu bu müqəddəs andın mənasını tam olaraq dərk etməlidir.

Təbrikdə, həmçinin, 2020-ci il sentyabrın 27-dən başlayan və 44 gün davam edən Vətən müharibəsində Daxili Qoşunların şəxsi heyətinin fədakarlıq göstərərək, şərəfli döyüş yolu keçdiyi bildirilib. Sıralarımıza daxil olan hər bir hərbi qulluqçunun Azərbaycan Respublikasının Konstitusiyasına, hərbi anda və nizamnamələrə sadiq qalacağına, dövlətçiliyimizin qorunması və qüdrətlənməsi naminə uğurlar qazanacağına əminlik ifadə olunub.



Təntənəli gün münasibətilə çıxış edənlər əsgərləri səmimi qəlbdən təbrik edərək, onları cəsur və intizamlı olmaqla, hərbi bilikləri öyrənməyə, daim Vətənin müdafiəsinə hazır olmağa səsləyiblər. Mərasim şəxsi heyətin təntənəli keçidi ilə başa çatıb.

**Mətbuat xidməti**

# YÜKSƏK DÖYÜŞ HAZIRLIĞININ QORUNUB SAXLANILMASI DAİM NƏZARƏTDƏDİR

Silahlı cinayətkarların axtarılması, tutulması və zərərsizləşdirilməsi, istər ictimai təhlükəsizliyin pozulması, istərsə də təbii fəlakətlər zamanı qarşıya qoyulan tapşırıqların müvəffəqiyyətlə yerinə yetirilməsinə daim hazır olmaq Daxili Qoşunların 12565 saylı hərbi hissəsinin "Panter" şərti adı verilmiş xüsusi təyinatlı dəstəsinin əsas vəzifələridir. Dəstənin şəxsi heyəti hər zaman xidmətdə sayıqlıq və əzmkarlıq nümayiş etdirərək verilən tapşırıqların öhdəsindən layiqincə gəlir.



İlin istənilən fəslində, müxtəlif relyefli ərazilərdə çevik fəaliyyət göstərmək qabiliyyətinə malik olan dəstənin təlim proqramları hissənin digər bölmələrinin tədris proqramlarından fərqlənir. Hərbi qulluqçudan kifayət qədər fiziki güc və möhkəm iradəyə malik olmağı tələb edən bu təlim proqramlarında nəzərdə tutulmuş məşğələlərə maraqla yanaşan xüsusi təyinatlılar praktiki fəaliyyət zamanı yüksək peşəkarlıq nümayiş etdirirlər. Qeyd edim ki, dəstə ötən ilin yekun yoxlamasını müvəffəqiyyətlə başa vurub.



Dəstə komandirinin müavini-qərargah rəisi kapitan Turqay Musazadə bildirdi ki, xüsusi təyinatlı dəstənin şəxsi heyətinin döyüş təlimi Daxili işlər nazirinin müavini-daxili qoşunlar komandanının müvafiq direktivinin tələblərinə əsasən təşkil edilir. Əsas diqqət atəş və fiziki hazırlıqları ilə yanaşı, xüsusi-taktiki hazırlıq, hərbi topoqrafiya, həmlə-desant hazırlığı, tək əsgərin döyüş təlimi, hərbi-tibbi hazırlıq, hərbi mühəndis hazırlığı və mütəxəssislərlə ixtisas hazırlığı üzrə məşğələlərə yetirilir. Hərbi qulluqçuların mənəvi-psixoloji tərbiyəsinin, dünyagörüşlərinin düzgün formalaşmasına xüsusi önəm verilir.

Bölmənin fəaliyyətinin spesifikliyi barədə danışan komandir müavini vurğuladı ki, təlimlərin müxtəlif hava şəraitində təşkil olunub keçirilməsi diqqət mərkəzində saxlanılır. O, xüsusi təyinatlıların hazırlığının hərbi hissə komandanlığı tərəfindən yüksək qiymətləndirildiyini, şəxsi heyətin döyüş tapşırıqlarını yerinə yetirməyə hər zaman hazır olduğunu bildirdi: "Döyüş təlimi müvafiq plana əsasən təşkil olunur və keçirilir. Bu zaman əsas diqqət dəstənin üzərinə düşən vəzifələrin və tapşırıqların əhəmiyyətinin dərk edilməsinə yönəlir. Məşğələlər şəxsi heyətin təhkim olunmuş silaha mükəmməl yiyələnməsi, əlbəyaxa döyüş fəndlərinin öyrənilməsi, müxtəlif şəraitlərdə xidməti-döyüş tapşırıqlarının yerinə yetirilməsi zamanı döyüş və digər texnikanın bacarıqla tətbiq edilməsi, nizam-intizamın möhkəmləndirilməsi və sayıqlığın artırılması, fiziki və psixoloji gərginliyə tab gətirilməsinə istiqamətlənir. Ekstremal şəraitlərdə dayanıqlığın, mərdliyin, şücaətin və qətiyyətli fəaliyyətin nümayiş etdirilməsi nəzərdən qaçmayan məsələlərdir".

Kapitan T.Musazadənin sözlərinə görə, məşğələlər zamanı hər bir hərbi qulluqçunun fərdi hazırlığının artırılmasına önəm verilir. Şəxsi heyətin real şəraitə uyğun operativ şəkildə qərar qəbul etmək bacarığı qiymətləndirilir.

Zabit dedi ki, şəxsi heyətin yüksək döyüş hazırlığı ilə yanaşı, nizam-intizamının qorunub saxlanılması və sayıqlığın artırılması da daim nəzarətdə saxlanılır: "Yaradılmış bütün bu şəraitdən düzgün və səmərəli istifadə edərək keçirilən məşğələ və təlimlərə diqqət yetirilməsi döyüş hazırlığının artırılmasına xidmət edir. Yüksək döyüş hazırlığına, eləcə də xidmətin nümunəvi təşkil olunub aparılmasına nail olmanın əsasında isə şəxsi heyətin nizam-intizamı və düzgün istiqamətə köklənmiş mənəvi-psixoloji durumu dayanır".

Sonda kapitan T.Musazadə şəxsi heyət arasında yüksək döyüş hazırlığı və intizam nümayiş etdirən hərbi qulluqçulardan leytenant Rahim Əhmədov, gizirlər Murad Quliyev, Elnur Yaqubov və müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu əsgər Samur Abbasəliyevin adlarını çəkdi, onların yoldaşlarına nümunə olduqlarını söylədi.

**kapitan Xədicə Hacızadə**

# HƏRBİ HİSSƏNİN QABAQCIL BÖLMƏSİ

12318 saylı hərbi hissənin xidməti nailiyyətləri, əzmkarlığı ilə fərqlənən xüsusi vasitələrin tətbiqi dəstəsi 2022-ci ilin mart ayında hərbi intizamın və qoşun xidmətinin vəziyyətinə görə ikinciliyi qazanıb.



Dəstə komandiri mayor Rəşad İsmayılov dəstədə yüksək nizam-intizamın əldə olunması üçün şəxsi heyətə qarşı tələbkarlığın, gündəlik xidməti-döyüş fəaliyyətinin nəzarətdə saxlanılmasının vacibliyini vurğuladı. O, xidmətini Daxili işlər nazirinin müavini - daxili qoşunlar komandanının müvafiq Direktivinin tələblərinə əsasən təşkil etdiyini nəzərimizə çatdıraraq, keçirilən praktiki və nəzəri məşğələlərin keyfiyyətli, tam fərdi qaydada mənimsənilməsinin müsbət nailiyyətlərin, qabaqcıl təcrübənin əldə olunmasına təkan verdiyini sözlərinə əlavə etdi. Belə ki, gündəlik olaraq şəxsi heyətin tam tərkibdə xidmətdə olmasının yoxlanılması, tərtib edilən məşğələ cədvəlinə əsasən, məşğələlərin vaxtında keçirilməsi, hərbi qulluqçuların məşğələyə uyğun ekipirovkası və silahlanması təmin olunur. Kiçik komandir heyətilə məşğələlərə xüsusi diqqət yetirilir. Onların şəxsi heyətlə iş metodu və üsulları müəyyənləşdirilir, müvafiq tapşırıqlar verilir. Şəxsi heyətin nəzəri biliklərini və praktiki fəaliyyətini şəxsən yoxlayan komandir daxili qayda-qanuna ciddi riayət olunmasını nəzarətdə saxlayır. Tabeliyində olan hərbi qulluqçulardan təhkim olunmuş silah və xüsusi vasitələrin təyinatını, döyüş xüsusiyyətlərini bilmələrini, onlardan istifadə zamanı təhlükəsizlik qaydalarına əməl etmələrini tələb edir.



Hərbi qulluqçuların döyüş və ictimai-siyasi hazırlığına, hərbi intizamına, qarşıya qoyulmuş tapşırıqların müvəffəqiyyətlə yerinə yetirilməsinə, xüsusi vasitə və silahların, texnikanın vəziyyətinə daim nəzarət etdiyini diqqətə çatdıran komandir, həmçinin, söhbət əsnasında xidmətin düzgün təşkilinin kompleks iş olduğunu söylədi, bu sahədə ona yaxından köməklik göstərən qrup komandirlərinin adlarını çəkməyi unutmadı. Əsasən məşğələlərin keyfiyyətli təşkili prosesində fərqlənən qrup komandirlərindən baş leytenantlar Razim Umudov və Fuad Zeynallının fəaliyyətini qeyd etdi.

Dəstə komandirinin müavini - qərargah rəisi mayor Rövşən Nəsibovun hərbi qulluqçuların döyüş hazırlığının, fərdi qaydada peşəkarlığının artırılması istiqamətində mütəmadi işlər apardığını vurğuladı.

Şəxsi heyət arasında sağlam mənəvi-psixoloji durumun formalaşması və yoldaşlıq münasibətlərinin düzgün istiqamətdə inkişafı, eləcə də yeni gəlmiş hərbi qulluqçuların kollektivə uyğunlaşmaları da önəm verilən əsas məsələlərdir. Bu istiqamətdə xüsusi vasitələrin tətbiqi dəstəsi komandirinin tərbiyə işləri üzrə müavini mayor Elşad Qasımovun fəaliyyəti müsbət xarakterizə edilir.

Sonda onu qeyd edə bilərik ki, hərbi hissənin öncülləri sırasında olan xüsusi vasitələrin tətbiqi dəstəsi bu adı daima qoruyub saxlamaq əzmindədir.

**baş leytenant**
**Nigar Ağayeva**

# TAPŞIRIQLARI KEYFİYYƏTLƏ YERİNƏ YETİRMƏK BACARIĞI...

Məlumdur ki, Daxili Qoşunlara həvalə olunmuş vəzifələrdən biri də zərurət olduqda Azərbaycan Respublikası ərazisinin müdafiəsində iştirak etməkdir. Bu baxımdan, 16077 saylı hərbi hissənin minaatan batareyası xidməti-döyüş fəaliyyətini uğurla həyata keçirir. Batareyanın şəxsi heyəti yüksək döyüş hazırlığı və nizam-intizamı ilə seçilir. Peşə vərdişlərinin artırılması məqsədilə şəxsi heyət mütəmadi olaraq məşğələlərə cəlb olunur. Keyfiyyətlə keçirilən məşğələlərin nəticəsidir ki, batareya qarşıya qoyulan vacib, eyni zamanda, məsuliyyətli tapşırıqların öhdəsindən layiqincə gəlmək bacarığına malikdir. Bu işdə batareyanın təcrübəli komandiri kapitan Ağası Kərimlinin zəhməti danılmazdır.





Minaatan batareyanın vəzifələri barədə danışan kapitan A.Kərimli bildirdi ki, əsas tapşırıqlar döyüş əməliyyatları zamanı düşmən üzərinə asanlıqla irəliləmək üçün xüsusi təyinatlı bölmələri atəş dəstəyilə təmin etməkdən ibarətdir.

Batareya komandiri söylədi ki, qarşıya qoyulmuş döyüş tapşırığının müvəffəqiyyətlə yerinə yetirilməsi hər bir hərbi qulluqçudan böyük məsuliyyət tələb edir: "Məsələn, düşmənin qüvvəsini görmədən vurmaq tapşırığını yerinə yetirərkən riyazi hesablamalar əsas götürülür. Lakin məlumatlar dəqiq və düzgün çatdırılmalıdır".

Kapitan A.Kərimli hərbi qulluqçuların peşə vərdişlərinin artırılması məqsədilə görülən işlərdən də danışdı. O, şəxsi heyətin mütəmadi olaraq praktik məşğələlərə cəlb olunduğunu dedi: "Hərbi qulluqçularla ixtisas hazırlığı məşğələsində "batareya hücumda" və "batareya müdafiədə" mövzularında təlimlər keçirilir, həmçinin, minaatanın təyinatı, taktiki-texniki xüsusiyyətləri, iş prinsipləri, o cümlədən, təhlükəsizlik qaydaları öyrədilir".

Əlavə olaraq, ayda bir dəfə batareyanın şəxsi heyəti hərbi hissənin xüsusi təyinatlı bölmələrinin hərbi qulluqçuları ilə birlikdə 2-3 günlük "Dəstə reyd fəaliyyətində" mövzusunda xüsusi-taktiki təlimlərə cəlb olunur. Şəxsi heyət təlim və məşğələlərə məsuliyyətlə yanaşır, nizam-intizama ciddi riayət edir.

Batareya komandiri funksional vəzifələrinin öhdəsindən layiqincə gələn hərbi qulluqçulardan baş leytenant Kənan Gözəlovun, leytenant Emil Rzayevin və baş çavuş Hikmət Nadirovun adlarını çəkərək, əlavə etdi ki, komandiri olduğu batareya yüksək döyüş hazırlığına malikdir və istənilən zaman qarşısına qoyulan tapşırıqların icrasına hazırdır.

**baş leytenant**
**Nigar Ağayeva**

*Şəhidlərimiz*

# DÖYÜŞÇÜ FƏDAKARLIĞI VƏ SİLAHDAŞ LƏYAQƏTİ İLƏ YADDAŞLARDA SİLİNMƏZ İZ QOYDU...

Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi altında Silahlı Qüvvələrimizin 44 günlük Vətən müharibəsi zamanı apardığı döyüş əməliyyatlarının uğurla başa çatmasına Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının şəxsi heyəti layiqli töhfəsini verib. Dövlət başçısının çıxışlarında hərbi qulluqçularımızın döyüşlərdə göstərdikləri şücaət nümunələri xüsusi vurğulanıb.

Vətən müharibəsində şəhidlik zirvəsinə ucalan qoşunların 66 nəfər hərbi qulluqçusundan biri də baş çavuş Əkbərov Vüqar Seyid oğludur. O, 1990-cı il sentyabrın 12-də Tovuz rayonunun Yuxarı Öysüzlü kəndində doğulub. Bu yurdun sakinləri mərdlik və doğma torpağa mənəvi cəhətdən möhkəm bağlıdırlar. Birinci Qarabağ müharibəsi zamanı və atəşkəs dövründə kənddən 19 nəfər şəhid olub, onlardan 6 nəfəri mülki şəxsdir. Vətən müharibəsində isə kənddən 4 nəfər şəhidlik zirvəsinə ucalıb.

Seyid Əkbərov və Xanım Aslanovanın üç övladından ortancılı olan Vüqar öz nəslinin yeganə şəhididir. Valideynləri, bacı və qardaşı Yuxarı Öysüzlüdə yaşayırlar. Zəhmətkeş ailədə böyümüş Vüqar valideynlərinin verdikləri tərbiyə əsasında ləyaqətli gənc kimi formalaşıb. Atası hazırda işləmir, anası tibb işçisidir. Qardaşı gizir Vüsal Əkbərov Müdafiə Nazirliyinin "N" saylı hərbi hissəsində feldşer vəzifəsində xidmət edir. 2016-cı ilin aprel döyüşləri vaxtı ön xəttə olub. 2020-ci ildə Tovuz rayonu ərazisində məlum döyüşlər zamanı yaralı hərbçilərimizə tibbi yardım göstərib. Vətən müharibəsi dövründə isə Daşkəsən rayonunda ön mövqeyə göndərilib.

Yuxarı Öysüzlüdəki Məmmədqara Məmmədov adına tam orta məktəbdə təhsil almış Vüqar çalışqanlığı ilə fərqlənib, müəllimləri dərslərə münasibəti və davranışından razı qalıblar.

Yeniyetmə yaşlarından fiziki hazırlığına xüsusi diqqət yetirib, müntəzəm şəkildə idmanla məşğul olub. Bu amil onun xaraktercə iradəli və qətiyyətli olmasının bünövrəsini qoyub. Ünsiyyətcil, səmimi, xeyirxah, dürüst, təmkinli olması da şəxsi keyfiyyətlərinə aid idi.

Müddətli həqiqi hərbi xidmətə çağırılanadək Vüqar ev təsərrüfatı işlərində ailəsinə kömək edib.

2008-ci ilin oktyabr ayından 2010-cu ilin aprel ayınadək Vüqar Goranboy rayonu ərazisində Müdafiə Nazirliyinin "N" saylı hərbi hissəsində müddətli həqiqi hərbi xidmət keçib. Hərbi xidmətini vicdanla başa vuraraq geri dönüb.

Hərbçi peşəsinə marağı və həvəsi səbəbindən Vüqar bir neçə il sonra Daxili Qoşunların sıralarında müddətdən artıq həqiqi hərbi xidmətə qəbul olunmaq üçün komandanlığa müraciət etmək qərarını verib. Gəncin müraciəti müsbət cavablandırılıb.



2013-cü ilin may ayının 10-da 16077 saylı hərbi hissədə motoatıcı taborun motoatıcı bölüyündə sürücü vəzifəsinə təyin edilib. Həmin hərbi hissədə motoatıcı taborun motoatıcı bölüyündə manqa komandiri-maşın komandiri, xüsusi təyinatlı dəstənin xüsusi həmlə qrupunda qumbaraatan vəzifələri də hərbi qulluqçuya həvalə olunub. 2018-ci ilin may ayında 17071 saylı hərbi hissəyə keçirilərək xüsusi təyinatlı dəstənin xüsusi həmlə qrupunda atıcı-qumbaraatan vəzifəsində də nümunəvi cəhətdən fərqlənib. 2019-cu ilin sentyabr ayında xidmətini 16075 saylı hərbi hissədə davam etdirərək, xüsusi təyinatlı dəstənin xüsusi həmlə qrupunda atıcı-qumbaraatan köməkçisi vəzifəsinin öhdəsindən bacarıqla gəlib. Əzmkar hərbi qulluqçu olaraq tutduğu vəzifələrdə komandanlığın etimadını doğruldub. Komandirləri tərəfindən qarşıya qoyulan tapşırıqları məsuliyyətlə yerinə yetirib, döyüş və mənəvi-psixoloji hazırlığının yüksəldilməsi üçün öz üzərində daim çalışıb. Xidmətdə və təlimdə göstərdiyi müsbət nəticələrə görə dəfələrlə mükafatlandırılıb. Şəxsi heyət arasında hörmət qazanıb.

2020-ci ilin sentyabr ayının 27-də erməni işğalçılarına qarşı Vətən müharibəsi başladıqda Müdafiə Nazirliyinin xüsusi təyinatlı bölmələri ilə birlikdə Daxili Qoşunların xüsusi təyinatlılarına ilk gündən döyüş tapşırıqlarının icrası həvalə olunub. 16075 saylı hərbi hissədə xüsusi təyinatlı dəstənin şəxsi heyəti ön cəbhədə ayrı-ayrı qrupların tərkibində müharibə sınaqlarından keçib. Vüqar ruh yüksəkliyi ilə döyüşlərə atılıb. Halbuki, onun həmin vaxt sağlamlığında müəyyən problemlər vardı. Buna baxmayaraq, qəti mövqeyini bildirib ki, silahdaşlarının yanında olacaq. Xüsusi təyinatlı Cəbrayıl rayonundan başlayaraq Şuşa şəhərinədək igidliklə vuruşub.

Vətən müharibəsi iştirakçısı, 16075 saylı hərbi hissədə xüsusi təyinatlı dəstənin komandiri mayor Ələsgər Muxtarov bildirdi ki, Vüqar vətənpərvər, hərbi anda sadiq, yüksək döyüş qabiliyyətinə malik, intizamlı xüsusi təyinatlı idi. Komandirin sözlərinə görə, xüsusi təyinatlı onun tabeliyində 8 aya yaxın müddətdə xidmət edib, fəaliyyətində güvən qazanıb, hərbi kollektivdə yoldaşlıq münasibətlərinə ziyan vuran addım atmayıb. Xidməti tapşırıqların icrasında sayıqlıq göstərib, peşə bacarıqlarını təkmilləşdirmək üçün öz səylərini əsirgəməyib.

Mayor Ə.Muxtarov məlumat verdi ki, Vətən müharibəsində Vüqar daim öndə gedib, mərmi və güllələrin atəşi altında düşmənin üzərinə cəsarətlə irəliləyib. Cəbrayıl rayonu ərazisində ermənilərin müdafiə xəttinin yarılması, atəş nöqtələrinin susdurulması, bu istiqamət üzrə, habelə Füzuli, Xocavənd, Xocalı rayonlarının bir sıra yaşayış məntəqələrinin, ayrı-ayrı yüksəkliklərin azad olunması, Şuşa uğrunda döyüşlərdə Vüqar təhkim olunmuş silahlarla işğalçılara qan uddurub. Düşmənin müxtəlif texnikasını atəş zərbəsi ilə yararsız hala salıb. Yaralılara ilk yardım göstərilməsi və onların təxliyyəsində silahdaşlarının köməyinə yetişib.

16075 saylı hərbi hissədə xüsusi təyinatlı dəstənin xüsusi həmlə qrupunda atıcı-istehkamçı, Vətən müharibəsi iştirakçısı çavuş Kamal Məmmədli qeyd etdi ki, 2020-ci il oktyabrın 2-də Cəbrayıl rayonunun Böyük Mərcanlı kəndi yaxınlığında düşmənin 2-ci müdafiə səddinin yarılması zamanı o, sağ ayağından güllə yarası alıb. Çavuş Orxan İbrahimov döyüşçü yoldaşına yardım edərkən onların bir neçə metrliyində minaatan mərmisi partlayıb və Kamalın sol ayağını, qolunu qəlpələr zədələyib. Həmin anda Orxan da yaralanıb və kömək çağırmaq üçün sürünərək oradan kənarlaşıb, Siruz adlı döyüşçüyə Kamalın yerini deyib. Siruz Kamala yaxınlaşmağı bacarıb, onu ərazidən çıxararkən Vüqar atəş altında Siruza köməklik edərək silahdaşlarını təhlükəli yerdən uzaqlaşdırıblar. Yoldaşlarının fədakarlığı sayəsində Kamal sağ qalıb.

Vətən müharibəsi qazisi, ehtiyatda olan çavuş Rasim Hacıyev söylədi ki, Vüqarla 16077 və 16075 saylı hərbi hissələrdə birgə xidmət edib, dost olublar. Vətən müharibəsində qumbaraatan köməkçisi kimi Vüqarın döyüşkənliyi ilə silahdaşlarına örnək olduğunu vurğuladı. Hadrut istiqamətində döyüşdə dostunun qapalı kəllə-beyin travması aldığını və hərbi qospitala göndərildiyini diqqətə çatdırdı. Lakin o, qospitalda bir neçə gün qaldıqdan sonra müalicəsini



könüllü olaraq dayandırıb. Beləliklə, Vüqar Qırmızı Bazar istiqamətində döyüşən silahdaşlarının yanına qayıdıb. Rasim Daşaltı kəndi ətrafında döyüşdə ağır dərəcəli kəllə-beyin travması aldıqdan təxliyyə olunub, onun qumbaraatan silahı Vüqara verilib.

16075 saylı hərbi hissədə xüsusi təyinatlı dəstənin xüsusi həmlə qrupunda atıcı-sanitar, Vətən müharibəsi iştirakçısı çavuş Tahir Babayev bildirdi ki, Vüqar müharibənin əzab-əziyyətlərinə dözümlə yanaşıb, silahından başqa, üzərində tələb olunandan əlavə sursat ehtiyatı, əl qumbaraları daşıyıb. Döyüşlərdə qumbaraatanla sərrast atəş açaraq işğalçılara məxsus bir çox hədəfi məhv edib, həmçinin, şəxsən götürülən silah-sursatdan məharətlə yararlanıb. Düşmənin pusquya salınması və onun qurduğu pusquların aşkarlanmasında döyüşçü bacarığı göstərib.

Vətən müharibəsi iştirakçısı, 16075 saylı hərbi hissədə xüsusi təyinatlı dəstənin xüsusi həmlə qrupunda atıcı-sanitar vəzifəsindən hazırda ehtiyata buraxılan çavuş Orxan Həsənovun verdiyi məlumata görə, Şuşanın işğaldan azad olunması uğrunda vuruşarkən hər bir döyüşçüdə xüsusi bir coşqu yaranıb. Vüqar Şuşaya qədəm basacağı günü müharibənin əvvəlindən səbirsizliklə gözləyib. Şuşaya yaxınlaşmaq üçün bir neçə gün dağlıq ərazidən keçiblər, şəhərin ətrafındakı yüksəkliklər, Laçın-Şuşa və Xankəndi-Şuşa yolları nəzarətə götürülüb. Şiddətli döyüşlər nəticəsində Şuşa yaxınlığında mövqelənibləр. Noyabrın 6-da gecə saat 4-5 radələrində onların yerləşdikləri mövqe düşmənin zirehli texnikalarından, artilleriya vasitələrindən atəşə tutulub. Orxan bir neçə metrliyində kiminsə onu çağırdığını eşidib, yaxınlaşarkən Vüqarı üzü üstə uzanmış vəziyyətdə görüb. Onun kürəyindən qan axırmış, Orxan yoldaşının yarasına tampon qoyub, ağrıkəsici iynə vurub. Vüqar "bir az rahatlandım" – deyib, olduğu yerə mərmilərin az düşdüyünü söyləyərək, Orxana oradan getməyin təhlükəli olduğunu bildirib. Ancaq Orxan digər yaralılara yardım etmək üçün Vüqarın yanından getməli olub. Həmin məqamda yaralıları təxliyyə etmək mümkün deyildi. Səhər açılanda Vüqar aldığı yaradan əbədi olaraq gözlərini yumub.

18.11.2020-ci il tarixli ölüm haqqında şəhadətnamədə isə hərbi qulluqçumuzun 2020-ci il noyabrın 9-da Şuşada hərbi əməliyyatda törənmiş zədələnmələrdən həlak olduğu yazılıb.

Şəhid noyabrın 13-də Yuxarı Öysüzlü kəndinin qəbiristanlığında dəfn olunub.

Azərbaycan Respublikası Prezidentinin imzaladığı 15 dekabr 2020-ci il, 24 dekabr 2020-ci il, 29 dekabr 2020-ci il tarixli müvafiq sərəncamlarla baş çavuş V.Əkbərov ölümündən sonra "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə" və "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edilib.

Qənirə Paşayevanın müəllifi olduğu "Tovuz şəhidləri. 44 günlük Vətən müharibəsi" kitabında Vüqar haqqında məqalə öz əksini tapıb.

Tovuz şəhərindəki Şəhidlər xiyabanında inşa olunan abidə kompleksində Vüqarın da şəkli var. Yuxarı Öysüzlüdə isə şəhidlərin xatirəsinə abidə-bulaq kompleksi yaradılıb. Kənddə Vüqarın şəkli əks olunan plakat quraşdırılıb. Məzunu olduğu orta məktəbdə 2 A sinfinə şəhid döyüşçünün adı verilib.

Əkbərovlar ailəsinin yaşadığı evdə mərhumun xatirə guşəsi düzəldilib. Xatirə guşəsində şəhidin şəkilləri, hərbi forması və şəxsi əşyaları qorunub saxlanılır.

2017-ci ildə ailə quran Vüqarın övlad yadigarı yoxdur. Doğmaları, dostları, həmyerliləri, silahdaşları, bütün onu tanıyanların yaddaşında Vüqar silinməz iz qoyub. İgid döyüşçü daim ehtiramla xatırlanacaq, gənc nəsil belə oğulların hünər nümunələri timsalında vətənpərvər ruhda tərbiyə olunacaqdır.

**Allah rəhmət eləsin!**

**Yalçın Abbasov**

---

*Qazilərimiz*

# ÖVLADINA ŞƏHİD QARDAŞININ ADINI VERƏN CƏSUR XÜSUSİ TƏYİNATLI

44 günlük Vətən müharibəsində Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının xüsusi təyinatlıları torpaqlarımızın azadlığı uğrunda gedən döyüşlərdə fəal iştirak edərək, əsl qəhrəmanlıq nümunələri göstəriblər. Qazanılan qələbəyə öz layiqli töhfələrini verən və gənc nəslə örnək olan igid hərbi qulluqçularımızı tanımaq, həmçinin, onların nümunəvi xidmətini təbliğ etmək hər birimizin vətəndaşlıq borcudur.

Beləliklə, "Qazilərimiz" rubrikasının sizlərə təqdim etdiyimiz budəfəki qəhrəmanı baş çavuş Hüseynov İxtiyar Afik oğludur.

Baş çavuş İ.Hüseynov 1993-cü il iyulun 11-də Gədəbəy rayonunun Şurakənd kəndində (əvvəllər Sovetabad olan bu yaşayış məntəqəsinin indiki adı Şahdağdır) anadan olub. Orta təhsilini Gədəbəy rayonu şəhid Maarif Əsgərov adına Şahdağ kənd tam orta məktəbində alıb. Müddətli həqiqi hərbi xidmətini 2012-ci ilin yanvar ayından 2013-cü ilin iyul ayınadək Dövlət Sərhəd Xidmətinin "N" saylı hərbi hissəsində keçib. Tərxis olunduqdan sonra bir müddət mülki işdə çalışıb. Lakin hərbi xidmətə olan böyük marağı səbəbindən onun sıralarına qayıtmaq qərarını verib. Beləliklə, 2014-cü il dekabr ayından müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kimi Daxili Qoşunların 99713 saylı saylı hərbi hissəsinin sülhməramlı polisə dəstək bölüyündə baş atıcı-pulemyotçu vəzifəsində yenidən Vətənə olan borcunu şərəflə yerinə yetirməyə başlayıb. 2016-cı ilin may ayından 67987 saylı hərbi hissənin "Kobra" şərti adını daşıyan xüsusi təyinatlı dəstəsində xidmətini davam etdirən baş çavuş İ.Hüseynov burada müxtəlif vəzifələrdə: xüsusi həmlə qrupunda hərbi nəfəri, atəş təminatı qrupunun qumbaraatan yarımqrupunda qumbaraatan, xüsusi həmlə qrupunda atıcı-qumbaraatan, 2018-ci ilin noyabr ayından etibarən isə xüsusi həmlə qrupunda pulemyotçu kimi vəzifə borcunu ləyaqətlə yerinə yetirir. Xidmət etdiyi ötən dövrdə yüksək döyüş hazırlığı və nümunəvi xidmətilə fərqlənib, hərbi hissə komandanlığı tərəfindən dəfələrlə mükafatlandırılıb.

67987 saylı hərbi hissədə xüsusi təyinatlı dəstə komandirinin tərbiyə işləri üzrə müavini mayor Füzuli Şahrəliyev İxtiyarı amalına sadiq əsl vətənpərvər döyüşçü kimi xarakterizə edərək, dəstənin yüksək döyüş hazırlığı və hərbi intizamı ilə fərqlənən nümunəvi xidmətə malik olanlarından biri olduğunu diqqətə çatdırdı.

44 günlük Vətən müharibəsi başlayanda isə baş çavuş İ.Hüseynov Müdafiə Nazirliyinin "N" saylı xüsusi təyinatlı bölməsinin istehkamçı qrupunda istehkamçı vəzifəsində müddətli həqiqi hərbi xidmətdə olan doğma qardaşı əsgər Rafiz Hüseynovla birlikdə, böyük ruh yüksəkliyi və qürur hissi ilə döyüşlərə qatılıb. Cəsur qardaşların döyüş yolu Vətən müharibəsinin ilk günündən, məhz 2020-ci il sentyabrın 27-də Murovdağ silsiləsinin Kəlbəcər rayonu istiqamətindən başlayıb: "Həmin vaxt dəstə komandirimiz, Vətən Müharibəsi Qəhrəmanı polkovnik Füzuli İmrəliyevin rəhbərliyi altında qrupumuz təxminən saat 23:00-da düşmən postlarına və səngərlərinə hücum edib, bir sıra mühüm mövqelərini tutmağa müvəffəq oldu. Lakin qəflətən səhhətimdə yaranmış problemlər səbəbindən yeriyə bilmirdim və tez-tez ara-raq özümdən gedirdim. Sağlamlıq durumum yaxşı olmadığından, polkovnik F.İmrəliyev təxliyyə qrupu çağıraraq, qayanın arxasından çıxmağımı tapşırdı. Bir neçə saatdan sonra ayıldım ki, yanımda heç kim yoxdur. Gecə təxminən saat üç radələri olardı, mənim üçün çağırılmış təxliyyə qrupu gəlmişdi. Dəstəmizin şəxsi heyəti öndə vuruşduğu üçün, təxliyyədən



imtina edib, artıq özümü yaxşı hiss etdiyimi və döyüşü davam etdirmək istədiyimi bildirdim. Bir qədər sonra özümü yoldaşlarıma yetirib, yenidən onlarla birgə vuruşmağa başladım. İki gün burada düşməndən azad etdiyimiz mövqelərin müdafiəsində dayandıq.

Sentyabrın 30-da yuxarı komandanlıqdan cəbhənin digər istiqamətində hərbi əməliyyatlarda iştirak edəcəyimizlə bağlı yeni tapşırıq gəldi. Olduğumuz mövqeləri Müdafiə Nazirliyinin bölmələrinə təhvil verib, dərə yatağı ilə enməyə başladıq. Oradan çıxmağımızı görən düşmən bizi güclü artilleriya atəşinə tutdu. Xeyli sayda şəhid və yaralımız oldu. Elə mənimlə eyni maşında olan döyüşçü yoldaşımız, 17074 saylı hərbi hissənin xüsusi təyinatlısı baş çavuş Tofiq Həsənov şəhid oldu, bir neçə silahdaşımız ağır yaralandı. Mən özüm sağ ayağımdan yüngül qəlpə yarası aldım. Buna baxmayaraq, döyüşləri davam etdirdim".

Bundan sonra baş çavuş İ.Hüseynov Füzuli, Cəbrayıl və Xocavənd rayonlarının ərazilərində gedən döyüşlərə qatılaraq, cəsur silahdaşları ilə birgə işğalçı ordunun xeyli sayda canlı qüvvəsinin və hərbi texnikasının məhv edilməsində, eləcə də bir sıra yaşayış məntəqələrimizin və yüksəkliklərin azad edilməsində fəal iştirak edib. Pulemyot silahı ilə düşmənin başına od-alov yağdıran hərbi qulluqçumuz oktyabrın 6-da Cəbrayıl rayonu ərazisində azad etdikləri mövqelərin ermənilər tərəfindən artilleriya atəşinə tutulması nəticəsində partlayış travması alsa da, yenidən bir müddət döyüşü davam etdirib: "Döyüş meydanında məğlubiyyətə düçar olan düşmən xaincəsinə uzaq məsafədən olduğumuz mövqeləri güclü artilleriya atəşinə tuturdu. Təxminən səhər saat 10:00-da məhz düşmənin atdığı "Qrad" mərmisinin yaxınlığımıza düşməsi nəticəsində şəhid və yaralılarımız oldu. Şəhid olmuş döyüşçü yoldaşlarımızdan biri də 67987 saylı hərbi hissənin xüsusi təyinatlısı baş çavuş Əsgər Əhmədov idi. Onunla aramızda təxminən 20 metr məsafə olardı. Mən özüm ağır partlayış travması aldığımdan, huşumu itirmişdim. Bir neçə saatdan sonra atıcı-sanitarlar tərəfindən tibbi yardım aldıqdan sonra özümə gəlib, döyüşü davam etdirdim. Xocavənd rayonunun Noraşen kəndində (indiki Günəşli kəndi) düşmənin mühasirəsinə düşməyimizə baxmayaraq, onların xeyli sayda canlı qüvvəsini və hərbi texnikasını məhv edərək, strateji yüksəkliyi azad etdik. Ancaq aldığım ağır partlayış travması səhhətimdə getdikcə problemlərin artması səbəbindən oktyabrın 16-da məni döyüş meydanından təxliyyə etdilər. Əvvəlcə məni Füzuli rayonunun Əhmədbəyli kəndində yerləşən hərbi qospitala, bir neçə gün tibbi yardım göstərildikdən sonra Müdafiə Nazirliyinin Bakı şəhərindəki Hərbi Qospitalına, oradan da Daxili Qoşunların Hərbi Qospitalına gətirdilər".

Daxili Qoşunların Hərbi Qospitalında müalicə aldıqdan sonra, oktyabrın 27-də növbəti dəfə döyüş bölgəsinə qayıdanda İxtiyar doğma qardaşı əsgər Rafiz Hüseynovun şəhid olması xəbərini eşidib. Bildirdiyinə görə, Rafiz Şuşanın Daşaltı kəndi istiqamətində düşmən minasının partlaması nəticəsində ağır yaralanmış komandirinə özünü yetirib kömək etmək istəyərkən başından aldığı snayper gülləsindən şəhid olub. Cəsur qazimiz qardaş itkisindən bərk sarsılsa da, özünün də qeyd etdiyi kimi, Silahlı Qüvvələrimizin Müzəffər Ali Baş Komandanı cənab İlham Əliyevin vahid komandanlığı altında torpaqlarımızın erməni işğalçılarından azad edilməsilə bütün şəhidlərimizin intiqamının mənfur düşməndən alınması Hüseynovlar ailəsinin ən böyük təsəllisidir.

Azərbaycan Respublikası Prezidentinin imzaladığı 29.12.2020-ci il və 24.06.2021-ci il tarixli müvafiq sərəncamlarla baş çavuş Hüseynov İxtiyar Afik oğlu "Hərbi xidmətlərə görə", "Şuşanın azad olunmasına görə", "Kəlbəcərin azad olunmasına görə" və "Cəbrayılın azad olunmasına görə" medalları ilə təltif edilib.

Bundan əlavə, Daxili işlər nazirinin müavini-daxili qoşunların komandanının müvafiq əmrinə əsasən, döyüş əməliyyatlarında fəal iştirakına görə təltif edildiyi zoğali bereti İxtiyar bu gün böyük qürur hissi ilə daşıyır.

2020-ci ilin avqust ayında ailə quran İxtiyar anadan olan övladına şəhid qardaşı Rafizin adını verib. Vətən qarşısında müqəddəs borcunu ləyaqətlə yerinə yetirən qazimizə bundan sonrakı həyatında uğurlar diləyirik.

**mayor Anar Əhmədov**

4_Layout 1 16.05.2022 11:11 Page 1



## DAXİLİ QOŞUNLARIN ŞƏHİD HƏRBÇİSİNİN XATİRƏSİNƏ ABİDƏ-BULAQ KOMPLEKSİ AÇILIB

Biləsuvar rayonunun Ağalıkənd kəndində Vətən müharibəsi şəhidi Ruslan Qurbanovun xatirəsinə abidə-bulaq kompleksinin açılış mərasimi keçirilib.

Mərasimdə rayon rəsmiləri, şəhidin hərbçi yoldaşları, məktəblilər, şəhid ailələrinin üzvləri və müharibə iştirakçıları iştirak ediblər.

Tədbir Dövlət Himninin səsləndirilməsi ilə başlayıb və şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Mərasimdə şəhidin döyüş yolundan söhbət açılıb. Məktəblilər şəhidlərimizin ölməz qəhrəmanlığına həsr olunan şeirlər səsləndiriblər.

R.Qurbanovun ailə üzvləri dövlət tərəfindən şəhid ailələrinə göstərilən diqqət və qayğıdan razılıqlarını ifadə edib və buna görə Prezident, Ali Baş Komandan İlham Əliyevə minnətdarlıqlarını bildiriblər.

Qeyd edək ki, Ruslan Üzeyir oğlu Qurbanov 1991-ci il sentyabrın 7-də Biləsuvar rayonunun Ağalıkənd yaşayış məntəqəsində anadan olub.

Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının baş çavuşu olmuş Ruslan Qurbanov Vətən müharibəsi zamanı sentyabrın 28-də Murovdağ döyüşləri zamanı qəhrəmancasına şəhid olub.



O, Prezident İlham Əliyevin müvafiq sərəncamları ilə ölümündən sonra "Vətən uğrunda" və "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif edilib.

**Ordu.az**

## ETİBARLI MÜHAFİZƏ VƏ SAYIQLIQ



16077 saylı hərbi hissənin nümunəvi xidmətilə fərqlənən bölmələrindən biri komendant bölüyüdür.

Başlıca vəzifəsi Döyüş Bayrağının və hərbi şəhərciyin etibarlı mühafizəsi və müdafiəsini təşkil etmək olan komendant bölüyündə xidmət edən hərbi qulluqçular tərəfindən qarşıya qoyulmuş tapşırıqların uğurla yerinə yetirilməsi, xidmətin düzgün yöndə aparılması olduqca vacibdir. Etibarlı mühafizənin təmin olunması isə qarovula cəlb olunan şəxsi heyətin ayıq-sayıqlığından və xidmətin nümunəvi aparılmasına birbaşa təsir edən möhkəm hərbi intizamın olmasından asılıdır.

Bölük komandiri kapitan Rabil Əmirxanov bildirdi ki, xidmət Qarnizon və Qarovul Xidmətləri Nizamnaməsinin tələblərinə əsasən təşkil edilir. Xidmətə cəlb edilən öncə müvafiq plana əsasən, bölük komandiri və onun müavinləri tərəfindən hərbi qulluqçulara təlimat keçilir, müvafiq nizamnamənin maddələri onlara çatdırılır.

Kapitan R.Əmirxanov şəxsi heyətin döyüş hazırlığının yüksəldilməsi istiqamətində bölük komandirinin müavini baş leytenant Elxan İbrahimovun, mənəvi-psixoloji durumun yüksəldilməsində isə tərbiyə işləri üzrə müavin leytenant Aqşin Mütəllibovun əməyinin olduğunu nəzərimizə çatdırdı.

Bölük komandiri, həmçinin, xidmətin aparılmasında vacib olan şərtləri də diqqətə çatdıraraq söylədi ki, qarovul xidmətinə cəlb olunan hərbi qulluqçuların atəş hazırlığının və fiziki göstəricilərinin yüksək olması olduqca vacibdir. Bununla yanaşı, postda xidmət aparan zaman saatların ayıq-sayıqlıq, çeviklik, cəsarət nümayiş etdirməsi mühüm əhəmiyyət kəsb edən faktorlardandır. Xidmətin təşkili zamanı müvafiq hərbi nizamnamələrin tələblərinə qeyd-şərtsiz əməl edilməsi də başlıca amildir. Yalnız bu halda hərbi hissənin etibarlı mühafizəsindən danışmaq olar.

O, bölüyün intizamlı hərbi qulluqçuları kimi gizir Lənkəran Abdullayev, kiçik çavuş Rüfət Müseyibov, baş əsgərlər Alişan Hacıyev, İsmayıl Əliyev, Abbas Şirinovun adlarını çəkərək, onların yoldaşlarına nümunə ola biləcəklərini bildirdi.

Əminliklə demək olar ki, hərbi hissənin komendant bölüyünün şəxsi heyəti nümunəvi xidməti, sayıqlığı ilə seçilir və qəflətən qarşıya çıxan tapşırıqların dəqiqliklə yerinə yetirilməsinə hər zaman hazırdır. Apardan uğurlu xidmətin nəticəsidir ki, komendant bölüyü aprel ayı ərzində hərbi hissədə qoşun xidmətinin vəziyyətinə görə birincilik qazanıb.



**baş leytenant**
**Nigar Ağayeva**

## ŞƏXSİ HEYƏTİN SAĞLAMLIĞI DİQQƏT MƏRKƏZİNDƏDİR

Hərbi hissələrdə şəxsi heyətin sağlamlığının qorunub saxlanılmasında tibb xidmətinin fəaliyyəti danılmazdır. Bu məqsədlə davamlı olaraq müalicəvi-profilaktik tədbirlər həyata keçirilir.

25031 saylı hərbi hissənin tibb xidmətinin şəxsi heyəti də vəzifə borclarına məsuliyyətlə yanaşır, qoyulan tapşırıqları müvəffəqiyyətlə yerinə yetirir. Tibb xidməti rəisi tibb xidməti mayoru Yalçın Həsənov şəxsi heyətin tibbi təminatını həyata keçirir, hərbi hissədə müalicə-profilaktika, sanitariya-gigiyena qaydalarına riayət olunmasına, xəstə hərbi qulluqçulara vaxtlı-vaxtında lazımi tibbi yardımın göstərilməsinə cavabdehlik daşıyır.



2003-cü ildən Daxili Qoşunların sıralarında xidmət edən tibb xidməti mayoru Y.Həsənov bildirdi ki, gündəlik olaraq xidmət öz işini "Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının tibbi təminatı qaydaları haqqında Təlimat"ın, Daxili işlər nazirinin, Daxili işlər nazirinin müavini-daxili qoşunların komandanının əmr və göstərişlərinin tələblərinə, eləcə də hissə komandiri tərəfindən təsdiq olunmuş plana əsasən təşkil edir. Hər gün xidmət daxilində iclas keçirilir, görüləcək işlərin bölgüsü aparılır, tabelikdəki hərbi qulluqçulara aidiyyəti üzrə tapşırıqlar verilir.



Tibb xidmətinin hərbi qulluqçuları - tibb məntəqəsinin rəisi tibb xidməti kapitanı Asəf Yolçuyev, həkim-stomatoloq tibb xidməti kapitanı Anar Fərzəliyev, aptek rəisi-feldşer gizir Ramin Zamanov, feldşer kiçik gizir Həlimə İbrahimova, sanitar-təlimatçı, dezinfektorlar baş çavuş Anar Qocayev, kiçik çavuş Zəhra Nəsirzadə qarşıya qoyulan tapşırıqları uğurla və vaxtında yerinə yetirirlər.

Təsdiq edilmiş cədvələ əsasən, əsgər kazarmalarında, bölmələrdə, qarovul məntəqəsində, qərargah binasında, yataqxanalarda, 64412 saylı hərbi hissənin qərargah binasında cari və gündəlik dezinfeksiya işləri aparılır, tibb məntəqəsinin daxili təmizliyinin qorunub saxlanılmasına ciddi nəzarət edilir. Hərbi hissədə sanitar-gigiyenik vəziyyət ümumən qənaətbəxşdir. Hərbi qulluqçuların təhlükəli koronavirus infeksiyasına yoluxmasının qarşısının alınması, onların sağlamlığının qorunması məqsədilə profilaktik tədbirlər həyata keçirilir. Şəxsi heyətin tam şəkildə vaksinasiya prosesində iştirakı təmin olunur.

Həmçinin, qarovul xidmətinə, eləcə də hissənin digər naryad növlərinə cəlb olunan şəxsi heyətin tibbi müayinəsi aparılır, təzyiqləri ölçülür, sağlamlığında problem aşkarlanan hərbi qulluqçu dərhal xidmətdən azad edilir, ehtiyac yarandıqda tibb məntəqəsində stasionar müalicəyə qəbul olunur. Bölmələrdə gündəlik olaraq, səhər və axşam saatlarında termometriya aparılır.

Tibb xidməti mayoru Y.Həsənov tibb xidməti olaraq bundan sonra da şəxsi heyətin sağlamlığını qorumaq üçün əllərindən gələni əsirgəməyəcəklərinə söz verdi.

**kapitan Xədicə Hacızadə**

*idman*

## DAXİLİ İŞLƏR NAZİRLİYİNİN BİRİNCİLİYİ UĞRUNDA YARIŞDA YIĞMA KOMANDAMIZ FƏRQLƏNİB



Aprel ayının 29-30-da Daxili İşlər Nazirliyinin Polis Akademiyasında daxili işlər orqan və hissələri arasında parkur (maneələri aşma) üzrə komanda birinciliyi yarışı keçirilib. DİN-in İdman Cəmiyyətinin təşkilatçılığı ilə keçirilən yarışda Bakı Şəhər Baş Polis İdarəsinin, Polis Akademiyasının, Nəqliyyatda Baş Polis İdarəsinin, Diplomatik Nümayəndəliklərin Mühafizəsi üzrə Əlahiddə Polis Taborunun, Əlahiddə Çevik Polis Alayının, Baş Dövlət Yol Polisi İdarəsinin, DİN-in Baş Mühafizə İdarəsinin, Abşeron Rayon Polis İdarəsinin, DİN-in A.Heydərov adına Sıravi və Kiçik Rəis Heyəti Hazırlayan Məktəbinin idmançı əməkdaşları ilə yanaşı, Daxili Qoşunların hərbi qulluqçuları da iştirak ediblər. Qeyd edək ki, sözügedən yarışda Daxili Qoşunların yığma komandası 9 idmançı və 1 nümayəndə ilə təmsil olunub.

İki mərhələdə keçən yarışın birinci mərhələsində müəyyən edilmiş qaydalara əsasən, komandanın hər bir üzvü 15 metr məsafədə olan hədəfə tapançadan ayaq üstə tək və ya cüt əllə 6 dəfə atəş açıb və hədəfə dəyən hər xal ümumiləşdirilib. 2-ci mərhələdə isə hər bir iştirakçı 3 mərhələli tullanma, təkər aşırma, paralel qollar üzərində hərəkət, turnikdə dartınma, ziqzaqvari qaçış, kanatla qalxmanı yerinə yetirib və müxtəlif maneələri 260 metr məsafədə estafet şəklində qət edib.

Gərgin keçən mübarizədə Daxili Qoşunların yığma komandası xidmət etdikləri qurumu layiqincə təmsil edərək, 13 komanda arasında II yerə layiq görülüb. Qazandıqları bu uğur münasibətilə biz də öz növbəmizdə, idmançı hərbi qulluqçularımızı təbrik edir, uğurlarının daimi olmasını arzulayırıq.

**Mətbuat xidməti**

*NÜMUNƏVİ XİDMƏT*

## TƏCRÜBƏLİ RABİTƏÇİ



Daxili Qoşunların Dayaq rabitə qovşağında intizamı, bacarığı, verilən tapşırıqların icrasına məsuliyyətli münasibəti ilə seçilən hərbi qulluqçulardan biri baş çavuş Dəyanət Əliyevdir. O, 1981-ci il yanvarın 21-də Lerik rayonunun Billəban kəndində doğulub. Orta təhsilini doğma Billəban kənd məktəbində alıb. 1998-ci ildə orta təhsilini tamamladıqdan sonra 2000-ci ilə qədər Daxili Qoşunların sıralarında müddətli həqiqi hərbi xidmət keçib. 2001-ci ildən müddətdən artıq həqiqi hərbi xidmətə başlayıb. Hazırda Dayaq rabitə qovşağının baş texniki vəzifəsində xidmətini davam etdirir.

Dayaq rabitə qovşağının rəisi mayor Abbasəli Mehdiyev baş çavuş D.Əliyevi nizam-intizamlı, xidməti-vəzifə borclarının icrasına məsuliyyətlə yanaşan hərbi qulluqçu kimi xarakterizə etdi. Mayor A.Mehdiyev söylədi ki, baş çavuş D.Əliyev funksional vəzifələrini dərindən bilir, öz üzərində daim çalışır, bu sahədə biliklərinin artırılmasına diqqətlə yanaşır, həmçinin, peşəkarlıq vərdişlərini daim təkmilləşdirir, təcrübəsini xidmətə yeni qəbul edilən hərbi qulluqçularla bölüşür.

Hərbi qulluqçumuzla söhbət zamanı məlum oldu ki, o, Daxili Qoşunların Baş İdarəsində və hərbi hissələrdə mövcud olan siqnalizasiya qurğuları, videomüşahidə sistemləri, rabitə xətlərində nasazlıqlar yaranarsa, onları aradan qaldırır. Həmçinin, baş çavuş D.Əliyev müvafiq göstərişlərə əsasən, hərbi hissələrə də ezam olunur və vəzifələrini keyfiyyətlə yerinə yetirir.

Biz də öz növbəmizdə, hərbi qulluqçumuza xidmətində uğurlar arzu edirik.

**25031 saylı hərbi hissənin ştatdankənar müxbir postu**

## HƏRBİ XƏBƏRLƏR -YENİLİKLƏR-

### Türkiyənin "Anka" PUA-ları Qazaxıstanda istehsal ediləcək

Türkiyənin "Anka" pilotsuz uçuş aparatlarının (PUA) Qazaxıstanda istehsal olunması planlaşdırılıb.

TUSAŞ şirkətindən "Poliqon"a verilən məlumata görə, bununla bağlı Ankarada Qazaxıstanın "Kazakhstan Engineering" və TUSAŞ şirkətləri arasında hərbi-texniki əməkdaşlığa dair memorandum imzalanıb.



## Allah rəhmət eləsin

Daxili Qoşunların komandanlığı polkovnik Alim İsmayılova **anasının** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

16076 saylı hərbi hissənin komandanlığı baş leytenant Cahid Məmmədova **anasının** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.


TƏSİSÇİ:
Azərbaycan Respublikası DİN Daxili Qoşunların Baş İdarəsi.

Redaktor: Anar Əhmədov

REDAKSİYANIN ÜNVANI:
AZ 1130, Bakı şəhəri, Q. Musabəyov küç. 4, Daxili Qoşunların Baş İdarəsi.
Əlaqə telefonları: 560-22-63

Qəzet ayda 2 dəfə nəşr olunur. "Əsgər" qəzetinin redaksiyasında yığılıb səhifələnmiş və DİN-in mətbəəsində hazır elektron variantdan çap olunmuşdur.

Şəhadətnamə 3565
Sayı 3000